Bilirsinizmi, Rəbbiniz nə buyurdu?". Oradakılar: "Allah və Rəsulu daha doğrusunu bilir" dedilər. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "(Allah buyurdu ki) Qullarımdan bir qismi mənə iman, bir qismi isə mənə küfr edərək sabahladı

Zeyd bin Xalid əl-Cuhənidən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o belə dedi: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) gecə yağış yağdıqdan sonra əl-Hudeybiyyə ərazisində bizə sübh namazını qıldırdı. Namazını bitirincə üzünü insanlara çevirib dedi: "Bilirsinizmi, Rəbbiniz nə buyurdu?". Oradakılar: "Allah və Rəsulu daha doğrusunu bilir" dedilər. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "(Allah buyurdu ki) Qullarımdan bir qismi mənə iman, bir qismi isə mənə küfr edərək sabahladı. Allahın lütfü və rəhməti ilə bizə yağış yağdırıldı deyənlər mənə iman etmiş və ulduzlara küfr etmişdir. Lakin, filan ulduz sayəsində bizə yağış yağdırıldı deyənlər isə mənə küfr edib, ulduzlara inananlardılar".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Muslimin səhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) gecə yağış yağdıqdan sonra sübh namazını Hudeybiyyədə - Məkkəyə yaxın kənddə qıldı. Salam verib namazı bitirdikdən sonra üzünü insanlara tutub sual verdi: Bilirsinizmi izzət və cəlal sahibi olan Rəbbiniz nə dedi?: (Onlar) Allah və Rəsulu ən doğrusunu bilir - deyə cavab verdilər. O dedi: Uca Allah bəyan etdi ki, yağış yağdıqda insanlar iki qismə bölündülər: Uca Allaha iman gətirənlər və Ona küfr edənlər. "Allahın lütfü və rəhməti ilə yağış yağdı" deyənlər və yağışı Uca Allaha nisbət edənlər, Yaradan, kainatı idarə edən Allaha iman gətirənlərdir və ulduzlara inanmayanlardır. Lakin, "yağış ulduzlar sayəsində yağdı" deyənlər isə Allaha küfr edib, ulduzlara inananlardır və bu kiçik küfrdür, çünki, yağışın yağmasını ulduzlara nisbət etdilər, halbuki bunu Allah şərii və ya kövnü səbəb etməmişdir. Lakin, kim, yağışın yağması və yer üzündə baş verən digər hadisələri, ulduzların çıxması və batmasındakı hərəkətlərlə əlaqələndirərsə və onların hərəkətlərinin bu hadisələrə həqiqi mənada təsir edəcəyini etiqad edərsə, o böyük küfr edərək kafir olar.


النجاة الخيرية
ALNAJAT CHARITY


لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee